# GDU-da fənn olimpiadasının qalibləri mükafatlandırılıb

**Gəncə Dövlət Universitetinin (GDU) təşkilatçılığı ilə Azərbaycan dili və ədəbiyyat üzrə orta ümumtəhsil məktəblərinin XI sinif şagirdləri arasında keçirilən olimpiadaya yekun vurularaq qaliblərin mükafatlandırılması mərasimi keçirilmişdir.**




Tədbirdə universitetin tədris məsələləri üzrə prorektoru Şahin Xurşudov, elm və innovasiyalar üzrə prorektoru, Milli Məclisin deputatı Pərvin Kərimzadə, humanitar məsələlər üzrə prorektoru Gülsüm Fətəliyeva, Təcrübə və karyera şöbəsinin müdiri Cabbar Qarayev, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin nümayəndələri, məktəb direktorları, fənn müəllimləri, şagirdlər və valideynlər iştirak etmişlər.

Mərasimi Şahin Xurşudov açaraq Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunan fənn olimpiadasında uğur qazanan məktəbliləri təbrik etmiş, onlara gələcəkdə daha böyük qələbələr arzulamışdır. Bildirmişdir ki, olimpiadanın əsas məqsədi istedadlı şagirdlərin aşkar edilməsi və onlarda müxtəlif fənlərə olan marağın artırılması olmuşdur.

Tədbirdə universitetdə tədris olunan ixtisaslar, fakültələr və GDU-nun beynəlxalq əlaqələri haqqında ətraflı məlumat verildikdən sonra olimpiadanın nəticələrinə əsasən yüksək bal toplayan şagirdlərin adları açıqlanmışdır. Qeyd olunmuşdur ki, Gəncə şəhər 16 nömrəli tam orta məktəbin şagirdi Nuray Sadıqova və Göygöl rayon Üçtəpə kənd orta məktəbin şagirdi Firdus Tağıyeva I, Gəncə şəhər 21 nömrəli tam orta məktəbin şagirdi Şəfa Quliyeva II, 24 nömrəli tam orta məktəbin şagirdi Telli Məmmədova isə III yeri tutmuşlar.

Bilik yarışında yüksək bal topladığına görə 11 şagirdə və olimpiadanın təşkilində fəallıq göstərən bir qrup universitet əməkdaşına Fəxri fərmanlar və mükafatlar təqdim olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.-7 iyun, № 119.- S.16.